# Azərbaycan sosial müdafiə sahəsində dünyaya nümunədir

**Vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi, əhalinin aztəminatlı təbəqələrinə kömək göstərilməsi, o cümlədən yoxsulluğun səviyyəsinin azaldılmasında müstəsna əhəmiyyət kəsb edən minimum əməkhaqqının, minimum pensiyaların, sosial müavinətlərin və digər sosial təyinatlı xərclərin mütəmadi olaraq artırılması qarşıya qoyulan əsas vəzifələrdir. Yoxsulluğun aradan qaldırılması Azərbaycanda dövlət siyasətinin başlıca istiqamətlərindən biridir.**



Ölkə iqtisadiyyatı inkişaf etdikcə əhalinin rifahının yaxşılaşdırılması istiqamətində də müvafiq addımlar atılır. Azərbaycanın dövlət büdcəsinin sosialyönümlü olması da bunu bir daha təsdiq edir. Ölkə başçısının qeyd etdiyi kimi, 2020-ci ilin dövlət büdcəsi həm sosial, həm də investisiya yönümlü olacaq. Bütün bu islahatlarla yanaşı, ölkədə inflyasiyanın aşağı səviyyədə olması mühüm əhəmiyyət kəsb edir.

Son illərin reallıqları ondan ibarətdir ki, ölkəmizin dinamik iqtisadi inkişafı sosial sahəni də gücləndirmək üçün möhkəm zəmin yaradıb.

Prezident İlham Əliyevin 2019-cu il iyunun 18-də minimum aylıq əməkhaqqının 180 manatdan 250 manata çatdırılması, dövlət qulluqçularının aylıq vəzifə maaşlarının 50 faiz, hərbi və hüquq-mühafizə orqanlarının xüsusi rütbəli əməkdaşlarının və mülki işçilərinin əməkhaqlarının 40 faiz, dövlət ümumi təhsil və peşə təhsili müəssisələrində çalışan bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılan müəllimlərin vahid aylıq vəzifə maaşlarının orta hesabla 20 faiz, dövlət büdcəsindən maliyyələşən bir sıra digər təşkilatlarda çalışan şəxslərin aylıq vəzifə maaşlarının orta hesabla 40 faiz artırılması haqqında bir sıra sərəncamlar imzalaması dövlət və özəl sektorda çalışanların gəlirlərinin əhəmiyyətli dərəcədə artırılmasına stimul verib.

Əməkhaqlarının, əmək pensiyalarının, təqaüd və müavinətlərin artırılması bir daha sübut edir ki, dövlət siyasətinin mərkəzində insan amili dayanır. Önəmli olan məsələlərdən biri də odur ki, ölkə başçısının 18 iyun 2019-cu il tarixli Sərəncamı ilə minimum əməkhaqqının 250 manata çatdırılması ölkəmizdə ilk dəfə olaraq minimum əməkhaqqının yaşayış minimumunu üstələməsinə imkan verib. Qeyd edək ki, dövlət başçısının 2019-cu il 8 fevral tarixli Sərəncamı ilə martın 1-dən ölkəmizdə minimum əməkhaqqı 38,4 faiz artırılaraq 180 manata və dövlət başçısının qanunvericilik təşəbbüsü əsasında qəbul olunan qanunla əmək pensiyasının minimum məbləği 38,5 faiz artırılaraq 160 manata çatdırılıb. Hər iki artım respublikamızda əhalinin rifah səviyyəsinin yaxşılaşdırılması istiqamətində əhəmiyyətli irəliləyişə imkan verən mühüm addımlar olub.

Bundan başqa, dövlətimizin başçısının yeni qanunvericilik təşəbbüsü kimi, əmək pensiyasının minimum məbləği cari il oktyabrın 1-dən 160 manatdan 200 manata çatdırılması ilə minimum pensiya pensiyaçılar üçün yaşayış minimumunu (149 manat) 34,2 faizədək üstələmiş olacaq. Minimum əməkhaqqının artımı 950 min insanı, dövlət sektoru üzrə müxtəlif sahələrdə əmək haqlarının artımı isə 400 min insanı əhatə edir. Bütövlükdə ölkə başçısının yeni inqilabi sosial paketi ümumilikdə 1 milyon 350 min insanın əmək haqlarının, 750 mindən çox pensiyaçının pensiyasının, nəticə etibarilə 2,1 milyon vətəndaşın əmək haqqı və pensiya formasında gəlirlərinin ciddi şəkildə artımına imkan verəcək.

Bu gün Azərbaycan nail olduğu yüksək sosial-iqtisadi inkişaf səviyyəsi ilə dünyanın aparıcı dövlətlərinin, eləcə də nüfuzlu beynəlxalq təşkilatların diqqətini çəkməklə yanaşı, müxtəlif reytinq cədvəllərində də ilk sıralarda yer alır. Azərbaycanın "Doing Business 2020" reytinqində islahatçı ölkələr arasında ilk iyirmilikdə yer alması da yuxarıda qeyd etdiyimiz fikirlərin əyani təcəssümüdür.

Oktyabrın 15-də Prezident İlham Əliyevin yanında keçirilən iqtisadi müşavirədə dövlətimizin başçısı bildirib ki, 2019-cu ildə çox ciddi və böyük sosial paket reallaşdı: **"4 milyon 200 mindən çox insanın maddi vəziyyəti yaxşılaşdı, pensiyalar, əməkhaqları, müavinətlər artırıldı. Yəni, bu məqsədlər üçün milyardlarla manat vəsait xərclənib və bu vəsait sosialyönümlü istiqamətə nəzərdə tutulurdu. Buna baxmayaraq, inflyasiya çox aşağı səviyyədədir. Bu, çox yaxşı göstəricidir. Əhalinin gəlirləri yenə də inflyasiyanı əhəmiyyətli dərəcədə üstələyir".**

**Zahid Rza,**
***"İki sahil"***